№ 105 (4405) 01 iyul 2020-ci il

# Məkrli virusla mübarizədə fərdi nəzarətə ehtiyac böyükdür

## Koronavirus pandemiyasına qarşı görülən tədbirlərdə səmərəlilik üçün vətəndaş məsuliyyəti ön plana çıxıb

Dünya get-gedə koronavirusa alışır, amma hələ ki, virus bizim həyata alışa bilmir. İnsanla gözəgörünməz ölüm arasında olum-qalım savaşı şiddətlənir. Ortada nə qılınc var, nə də bomba. Virus həyatımızı hava ilə təhdid edir, biz isə onu nümunəvi davranmaqla neytrallaşdırırıq. Nəticə etibarı ilə 100 faizlik qələbə olmasa da, ötürücülük forması davam edir. Gah virus bizi üstələyir, gah da biz onu. Amma insanların kədəri daha böyükdür. Çünki doğmalarımız, dostlarımız, yaxınlarımız, tanışlarımız bir neçə gün içərisində gözlərimiz önündə həyatlarını itirirlər.

COVID-19-a yoluxanların sayı artıq 11 milyona yaxınlaşır. Virus yayılandan bu yana yarım milyondan çox insan həyatına vaxtından əvvəl son qoyub. 6 milyona yaxın insan virusa qalib gəlsə də, 5 milyona yaxını hələ də çarpışır. Koronavirusun bir ölkədə qarşısı alınanda digər ölkədə tüğyan edir və ya bir dalğa bitib qurtaran vaxt qəfildən ikinci dalğa başlayır. Düzdür, tibb elminin inkişafı bu cür virusların fövqündə dayanır. Lakin iş burasındadır ki, bu virusun xarakteri bilinmir, tam öyrənilməyib. Mübarizənin gücünü azaldan da bu amildir. Hamı fəlakətdən birdəfəlik yaxa qurtarmaq üçün vaksinin hazırlanmasını səbirsizliklə gözləyir. Ancaq bu məsələ də də hələ ki aydınlıq yoxdur. Çünki təbiblər, mütəxəssislər yalnız ehtimallar üzərində düşünür və rəylərini bildirirlər. Ona görə ki, bu cür viruslar şəkillərini dəyişdiyindən tam öyrənilməsi uzun müddət çəkir. Tanımadığımız insana qiymət verə bilmədiyimiz kimi öyrənilməmiş virusu da dəqiq qiymətləndirmək çətindir.

Vaksin tapılacaq, bu, zaman məsələsidir. Bununla yanaşı koronavirusun öz-özünə yox olması da istisna edlimir. Təcrübəli həkimlərin bildirdiyinə görə, indiyədək çox belə viruslar yer üzünə gəlib, ancaq müəyyən müddət "çalıb-çapandan" sonra birdən-birə yox olub. Bəzi mütəxəssislər də iddia edirlər ki, viruslar yox olmur, yalnız şəkillərini dəyişir, yaxud "gizlənir" və yayılması üçün münbit şərait yaranan kimi yenidən "hücuma" keçir. Belə natamamlıq da nagümanlığın başlıca mənbəyidir. Ancaq hər nə olur-olsun, vəziyyət tam ciddidir və birgə mübarizəmiz güclənməsə, fəlakətin miqyası çox dəhşətli olacaq. Bu səbəbdən dünya elm mərkəzləri koronavirusun vaksini və müalicə dərmanlarının hazırlanması ilə bağlı gərgin çalışır. Bu günlərdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbərlik etdiyi yeni tip koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə koalisiyası, qarşıdakı 12 ay ərzində COVİD-19 testi, müalicəsi və peyvəndi üçün 31,3 milyard dollara ehtiyac duyulduğunu açıqlayıb. Bu açıqlama ÜST-in




rəhbəri Tedros Qebreyesusun iştirakı ilə keçirilən videokonfrans zamanı verilib: "Bəzi ölkələr iqtisadiyyatı açarkən, sosial həyata qayıdarkən yoluxma hallarının artması ilə üzləşiblər. İnsanların əksəriyyəti virusa qarşı hələ də həssasdır. Virus üçün xeyli meydan qalır. Məsələnin hələ də sona çatmaması ağır gerçəklikdir. Ayrı-ayrı ölkələrdə irəliləyiş əldə edilsə də, dünya miqyasında pandemiya daha sürətlə yayılır". ÜST-in "ACT-Accelerator" proqramının xüsusi təmsilçisi Nqozi Okonci-İveala deyib ki, aşağı və orta gəlirli ölkələrdə müayinə və müalicə üçün 12 aydan artıq, peyvəndlər üçünsə 18 ayadək vaxt tələb olunur. Dünya Bankının sabiq rəhbərinin müavini Okonci-İveala, koalisiyanın virusla mübarizə çərçivəsində qarşıdakı 12 ay ərzində test, müalicə və peyvənd üçün 31,3 milyard dollara ehtiyacı olduğunu, lakin indiyə qədər yalnız 3,4 milyard dollar toplandığını bildirib. Yeri gəlmişkən, ən son xəbər ABŞ-dan gəlib. Belə ki, bu ölkənin dərman preparatları istehsalı ilə məşğul olan bir şirkəti səmərəli dərman hazırlandığını elan edib. Preparatın qiyməti isə 390 dollara satılır. Baha deyilmi? Axı, hər ölkə vətəndaşının bunu almağa gücü çatmaz. Üstəlik, hələ bilmək olmaz, bu preparat bütün iqlim növlərində yaşayan insanlara xeyir edəcək, ya yox. Demək, ümid yalnız özümüzədir.

Bizim "Koroğlu" dastanının qəhrəman düşmən üzərinə gedəndə "Dəlilərim, bu gün dava günüdür, Müxənnət ölkəsi talanmaq gərək" deyərək, nərə çəkirdi. İndi də bizim hər birimiz "İndi mübarizə günüdür, pandemiyaya qarşı milli həmrəylik nümayiş etdirək" deyərək, koronavirusun üzərinə hücuma keçməliyik. Saymazyanalıq edib, qapımızı döyən virusun içəri daxil olmasına imkan verməməliyik. Gəlin, bir ətrafımıza, itirdiyimiz insanlara diqqət edək. Nə qədər özündən deyən, loru dilimizdə desək, "cantaraq" övladlarımız bu lənətin güdazına gedib. Ölkə başçısı, demək olar kii, hər gün vətəndaşlarla görüşür, xahiş *edir, iradını bildirir*, yolunu göstərir və hamını birgə mübarizəyə səsləyir. Bütün bunlar yox yerdən deyil, zərurətdən doğur. Gəlin, düşmən dəyirmanına su tökənlərin təbliğatına uymayaq, özümüzü və ətrafımızı qoruyaq. Ehtimalların ümidinə qalmayaq, özümüzə inanaq və sadecə, maska taxıb, məsafə saxlayıb, qoruyucu əlcəklərdən istifadə etməklə zamanın sınağından birlikdə çıxaq.

***N.NOVRUZ***